# Azərbaycan istənilən təhdidə cavab verməkgücündədir

## Prezident həqiqətləri və ölkəmizin mövcud potensialını təqdim etdi

"Aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forum Azərbaycan həqiqətlərinin və reallıqlarının təqdimatı, eləcə də dövlətimizin regional məsələlərdəki mövqeyinin nümayişi baxımından mühüm əhəmiyyətə malikdir.

Bu görüş Prezident İlham Əliyev tərəfindən təqdim olunan və izahatı verilən məsələlərin müzakirəsi, habelə Qafqazda baş verənlər və fərqli ölkələrin regiona münasibətlərinin qiymətləndirilməsi aspektindən də çox faydalıdır".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat bildirib ki, dövlət başçısı sözügedən forumda Azərbaycanın regionda sülhə dəstək verən ölkə olduğunu bir daha bəyan edib. Azərbaycan sülh danışıqlarının davam etdirilməsində, bütövlükdə regionda təhlükəsizlik və stabilliyin formalaşmasında maraqlıdır və bununla bağlı real addımlar atır. Lakin Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra bəzi dövlətlər, xüsusən də Fransa ölkəmizə qarşı kifayət qədər qərəzli və ikili standartlara əsaslanan siyasət yürüdür.

Prezident İlham Əliyev də ADA Universitetində keçirilən forumda həmin ölkələrin Azərbaycana qarşı soyuq müharibəyə başladıqlarını vurğuladı. Həmçinin dövlət başçısı bildirdi ki, biz tam eyni tədbirləri görürük və "qırmızı xətləri" keçmirik.

Vüqar Bayramov əlavə edib ki, bəzi ölkələrin Cənubi Qafqazla bağlı siyasəti regionda sülhün əldə edilməsinə deyil, gərginliyin artmasına xidmət edir: "Bəzi siyasi qüvvələr Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına imkan vermirlər. Mövcud vəziyyət isə bu mövzuda nikbin düşünməyimizə səbəb olur. Prezident də forumda "COP29-dan əvvəl Azərbaycan ilə Ermənistan arasında sazişə nail olmaq, ən azı baza prinsipləri üzrə razılığa gəlmək tam real görünür" deyə bildirib. Həmçinin deyib



ki, baza prinsipləri üzərində razılığa gəlmək həmçinin variant hesab olunur, sonra isə müddəaların təfərrüatlarına vaxt sərf etmək olar.

Deputat onu da deyib ki, forumda Prezident əsl həqiqətləri söyləyib: "Dövlət başçısı Azərbaycanın mövcud potensialını bir daha təqdim etdi və istənilən təhdidə cavab vermək gücündə olduğunu söylədi. Forum həm də ölkəmizin reallaşdırdığı layihələrin və gələcək üçün planlaşdırdığı təşəbbüslərin təqdimatına lazımi imkan yaratdı. Daim sülh tərəfdarı olan Azərbaycanın sülhə yaxın olduğu forum sayəsində yenə təsdiqləndi. İlham Əliyev bəyan etdi ki, biz məsələnin (sülh sazişinin imzalanmasına - red.) həllinə heç vaxt olmadığı qədər yaxınıq".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 26 aprel, № 84.- S.11.